# "SABAH məzunlarının ikiqat məsuliyyəti var"




## "SABAH-ın məzunu 2024" tədbiri keçirilib








**Emin ƏMRULLAYEV:**

**"SABAH tələbəsi olmaq asan deyil. SABAH məzunlarının ikiqat məsuliyyəti var. Çünki adından da göründüyü kimi, SABAH tələbələri savadlı, bacarıqlı və hazırlıqlı olmalıdırlar. Öz istedadı ilə seçilən şəxslərin məsuliyyəti isə daha çox olur".**

**"SABAH qruplarında tələbələrin mükafatlandırılması, onlara fərqli təqaüdlərin verilməsi təşəbbüsü var. SABAH-ın nəticələrinə baxdıqda, görünən ondan ibarətdir ki, bu sistem özü-özlüyündə mühit dəyişikliyi, savadlı, bacarıqlı və hazırlıqlı şəxslərin irəliyə doğru addımlarını səciyyələndirir".**

**"SABAH məzunlarını iş axtaran deyil, işəgötürən tərəf kimi görməyi arzulayırıq. Bunun üçün SABAH.HUB layihəsini təşkil etdik. SABAH-ın təşkil etdiyi startaplar 9 milyon manata yaxın xarici investisiyalar əldə edib".**

İyulun 4-də Heydər Əliyev Mərkəzində "SABAH-ın məzunu — 2024" tədbiri keçirilib.

Tədbirdə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, elm və təhsil naziri Emin Əmrullayev, dövlət və özəl qurumlarının rəsmiləri, ali təhsil müəssisələrinin rektorları, müəllim və tələbələr, eləcə də digər qonaqlar iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları SABAH məzunlarının nailiyyətlərini əks etdirən sərgi ilə tanış olublar.

Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, ardınca şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra çıxış edən elm və təhsil naziri Emin Əmrullayev qonaqları salamlayaraq "SABAH qrupları" layihəsinin mahiyyət və məqsədi barədə danışıb. Layihənin ali təhsildə yenilik istiqamətində nəzərdə tutulan hədəflərə doğru bir addım olduğunu vurğulayan Emin Əmrullayev qeyd edib ki, SABAH ali təhsil müəssisələrinə yeni yanaşma gətirib. Nazir əlavə edib ki, savadlı və bacarıqlı tələbələr üçün yaradılmış bu proqrama nəzər saldıqda uğurlu nəticələri görmək mümkündür.

Nazir həmçinin bildirib ki, SABAH qruplarının 10 illik fəaliyyəti ərzində yaratdığı fərqli imkanlar tələbələr arasında rəqabət formalaşdırıb. Gələcəkdə bu pilot layihənin genişləndirilməsinin zəruriliyinə toxunan elm və təhsil naziri çıxışının sonunda SABAH məzunlarını təbrik edib və sözügedən qrupların fəaliyyətinin Azərbaycanı gələcəkdə daha güclü dövlətə çevirəcəyinə inamını bildirib.

Ardınca isə SABAH-ın uğurlu məzunları ilə bağlı videoçarx nümayiş etdirilib.

Tədbirdə hər il təkrarlanan ənənə — rəmzi SABAH açarının növbəti ilin məzunlarına ötürülməsi mərasimi də keçirilib.

Daha sonra yüksək göstəriciləri ilə fərqlənən məzunlar ali təhsil müəssisələrinin rektorları tərəfindən təltif olunublar.

Təltifetmə mərasimindən sonra "SABAH qrupları — 2024" mövzusunda videoçarx nümayiş etdirilib.

Tədbir çərçivəsində SABAH qrupları tələbələrinin ifasında musiqi nömrələri də səsləndirilib.

Tədbirin sonunda isə xatirə şəkli çəkdirilib.

Qeyd edək ki, 2023—2024-cü tədris ilində 31 ixtisas üzrə 727 bakalavr, 8 ixtisas üzrə 339 magistr SABAH qruplarından məzun olur.

Elm və Təhsil Nazirliyinin "SABAH qrupları" layihəsi hazırda 10 ali təhsil müəssisəsini, 7 ixtisas istiqaməti üzrə (təhsil, texniki, təbiət, humanitar, iqtisadiyyat, incəsənət, idman) 55 ixtisası və 2 846 tələbəni əhatə edir.